## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
## NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Təlim Mərkəzi” publik hüquqi şəxsin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” 2024-cü il 31 iyul tarixli 55 nömrəli Qərarında və “Naxçıvan Təlim Mərkəzi” publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında” 2024-cü il 31 iyul tarixli 76s nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə**

“Naxçıvan Təlim Mərkəzi” publik hüquqi şəxsin yaradılması barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 11 iyul tarixli 246-VI FR nömrəli Fərmanının 3.2.3-cü yarımbəndinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 31 iyul tarixli 55 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Təlim Mərkəzi” publik hüquqi şəxsin Nizamnaməsi”nin 5.4-cü bəndinin birinci cümləsində “Baş nazirinin müavinindən” sözləri “Baş nazirinin birinci müavinindən” sözləri ilə, ikinci cümləsində “Baş nazirinin müavinidir” sözləri “Baş nazirinin birinci müavinidir” sözləri ilə əvəz edilsin.

2. “Naxçıvan Təlim Mərkəzi” publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 31 iyul tarixli 76s nömrəli Sərəncamının 1-ci hissəsinin “Müşahidə Şurasının sədri” bölməsində “Baş nazirinin müavini” sözləri “Baş nazirinin birinci müavini” sözləri ilə əvəz edilsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “30” sentyabr 2024-cü il

№ 61